

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 130 (21.791)

*13 iyul 2017-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



İyulun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

Dövlətimizin başçısı iclası giriş nitqi ilə açaraq bildirib ki, bu ilin altı ayı ərzində qeyri-neft sektorunda qeydə alınan 1,7 faiz artım aparılan iqtisadi islahatların nəticəsidir. Qeyri-neft sənayesi daha çox artıb. Burada artım 4,4 faizdir. Bu, onu göstərir ki, islahatlar və aparılan siyasət öz nəticəsini verir.

Azərbaycan Prezidenti deyib ki, bu ilin altı ayında ölkə iqtisadiyyatına 5 milyard dollar sərmayə qoyulub. Bu sərmayənin böyük hissəsi xarici sərmayədir. Ölkəmizin valyuta ehtiyatları artıb və bu günə 40,6 milyard dollar təşkil edir. Bu il 122 min yeni iş yeri açılıb ki, onlardan 101 mini daimi iş yeridir. Xarici ticarət dövriyyəsinin göstəriciləri də müsbətdir. Bu ilin altı ayında ixrac 36 faiz artıb. Burada da ən önəmlisi qeyri-neft ixracıdır. Qeyri-neft ixracı altı ayda 27 faiz artıb. Bununla bərabər, idxal 15 faiz azalıb. Müsbət saldo 1,9 milyard dollar təşkil edir. Hər bir ölkə üçün bu, ən arzuolunan nəticələrdir.

Çıxışlardan sonra Prezident İlham Əliyev iclasda yekun nitqi söyləyib.

## Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişinin 48-ci ildönümü münasibətilə tədbir keçirilib



Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatında keçirilən tədbiri təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı İsa Məmmədov açaraq ümummilli lider Heydər Əliyevin sovet hakimiyyəti illərindəki fəaliyyəti dövründə Azərbaycanı müstəqil gələcəyə aparan məqsədyönlü siyasətindən danışıb.

Bildirilib ki, xalqımızın böyük oğlu Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə kənd təsərrüfatının və sənayenin müxtəlif sahələri inkişaf etdirilib, ölkədə 250 yeni müəssisə yaradılıb. Yeni ali və orta ixtisas təhsili müəssisələri açılıb, gənclərimizin digər respublikalarda ali təhsil almaları təmin olunub. Görkəmli dövlət xadiminin həyata keçirdiyi tədbirlər nəticəsində Azərbaycan SSRİ-nin ən qabaqcıl respublikasına çevrilib və öz güclü iqtisadi potensialını, intellektual bazasını yaradıb.

İsa Məmmədov deyib ki, ümummilli liderin Azərbaycana rəhbərliyinin birinci dövründə atdığı qətiyyətli addımlardan biri də Babək rayonunun yaradılmasıdır. 1978-ci ildə yaradılmış rayon dahi şəxsiyyətin ölkənin dağ və sərhəd rayonlarının daha da möhkəmləndirilməsi siyasətinin məntiqi nəticəsi, gələcək müstəqil Azərbaycan uğrunda apardığı böyük mübarizənin qələbəsi idi. Vurğulanıb ki, ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanı düşdüyü fəlakətlər girdabından xilas edən ulu öndərin səyi nəticəsində dövlət müstəqilliyimiz əbədi, dönməz xarakter alıb. Bu gün Azərbaycan öz iqtisadi inkişafına görə dünyanın öndə gedən ölkələrindən birinə çevrilib. Bunu Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının timsalında da görmək olar. Dahi şəxsiyyətin ideyalarının sədaqətlə həyata keçirildiyi bu qədim diyar özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Həyatın bütün sahələrində sürətli tərəqqi yolu ilə inamla və möhtəşəm nailiyyətlərlə irəliləyən müasir Naxçıvanın sosial-iqtisadi uğurları günü-gündən artmaqdadır.

Sonra Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatı Qadınlar Şurasının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Turan Məmmədlinin və Təhsil Şöbəsinin müdiri, şura üzvü Ovni Muradovun çıxışları olub.

Sonda tədbir iştirakçıları ulu öndərə həsr olunmuş “Ən böyük azərbaycanlı” adlı sənədli filmə tamaşa ediblər.

**Muxtar RZAZADƏ**

## Quruculuq tədbirləri Kəngərli rayonunun simasını daha da gözəlləşdirəcək





Cari ildə də Kəngərli rayonunda quruculuq tədbirləri sürətlə davam etdirilir. Bu tədbirlərdən biri rayon mərkəzində inşa edilən zirzəmi ilə birlikdə 7 mərtəbədən ibarət olacaq 48 mənzilli yaşayış binasıdır. Obyektdə Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Kəngərli Rayon İdarəsinin kollektivi çalışır. Yaşayış binasının zirzəmisi ticarət mərkəzi üçün nəzərdə tutulub. Binanın hər mərtəbəsində 8 mənzil yerləşəcək. Zirzəmi hissədə və birinci mərtəbədə hörgü işləri yekunlaşıb, növbəti mərtəbənin tikilişi üçün hazırlıq işləri görülür.

Muxtar respublikamızda həyata keçirilən quruculuq tədbirləri sırasında tarixi-mədəniyyət abidələrinin bərpası da mühüm yer tutur. Belə abidələrdən biri də Kəngərli rayonunun Qarabağlar kəndində yerləşən Qarabağlar türbəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 2016-cı il 4 iyul tarixdə “Qarabağlar Türbə Kompleksinin bərpası və tədqiq olunması haqqında” Sərəncam imzalayıb. Sərəncamın icrasına uyğun olaraq ötən ildən bu tarixi abidənin elmi əsaslarla bərpasına başlanılıb. Qeyd edək ki, Qarabağlar Türbə Kompleksi qoşa minarə, onlar arasındakı baştağ, qoşa minarələrə birləşən dini binanın qalıqları və türbədən ibarətdir. Türbənı sərdabə və yerüstü xatirə abidəsi təşkil edir. Sərdabə onikibucaqlı olub, divarları daşdan, günbəzi isə kərpicdən inşa edilib. Türbənin yerüstü hissəsi daş kürsülük üzərində inşa olunan 12 yarımsilindrdən ibarətdir. Dörd giriş qapısından biri olan əsas giriş qapısı üzərindəki kitabədə müqəddəs “Qurani-Kərim”dən 6 ayə (“Mülk” surəsi) həkk olunub.

Ötən dövr ərzində burada xeyli iş görülüb. Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin mütəxəssisləri tərəfindən aparılan işlər zamanı türbənin yuxarı hissəsindəki yazılar bərpa olunub, giriş qapılarının kənarları incə həndəsi naxışlarla işlənib. Türbə ilə qoşa minarələr arasındakı hissədə isə kompleks üçün muzey binası inşa olunub. Burada ekspozisiya zalı və iş otaqları yaradılıb. Hazırda muzey binasının dam örtüyü vurulur, türbənin kürsülük hissəsindəki daşların bəziləri müvafiq olaraq yerinə qoyulur. Bununla yanaşı, kompleksin ətrafı divarla hasara alınıb ki, burada da, əsasən, mozaik görüntüyə üstünlük verilib. Həyata keçirilən tədbirlər zamanı türbəyə gedən avtomobil yolunun da yenidən qurulması nəzərdə tutulub.

Adıçəkilən obyektlərin istifadəyə verilməsi Kəngərli rayonunun simasına yeni gözəllik bəxş etməklə yanaşı, rayonda turizmin inkişafına da öz töhfəsini verəcək.

**✍ Səbuhi HƏSƏNOV**

## Muxtar respublikada ixracın həcmi artmışdır

***Muxtar respublikada artan əhali tələbatına uyğun olaraq iqtisadi və sosial sahələrin inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.***

“Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)”, 2005-2010-cu illərdə Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə, 2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair, Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı, 2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə dövlət proqramlarının ardınca hazırda icrası davam etdirilən Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı, 2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə dövlət proqramlarının icrası ümumi inkişafa təkan vermiş, yeni istehsal və xidmət sahələri fəaliyyətə başlamış, iqtisadiyyat şaxələndirilmişdir.

Yerli istehsal sahələrinin inkişafın nəticəsidir ki, bu gün muxtar respublikada 371 növdə məhsul istehsal olunur. Bu məhsulların 121 növü ərzaq, 250 növü qeyri-ərzaq məhsullarıdır. 107-si ərzaq, 237-si qeyri-ərzaq olmaqla, 344 növdə məhsula olan tələbat tamamilə daxili imkanlar hesabına ödənilir. Muxtar respublikada ümumi inkişafın əsas göstəricisi olan ümumi daxili məhsul istehsalının həcmi 1995-ci illə müqayisədə 59,1 dəfə artaraq 2016-cı ildə 2 milyard 582 milyon manatdan artıq olmuşdur. Bu dövr ərzində sənaye məhsulunun həcmi 103,2 dəfə, kənd təsərrüfatı məhsulunun həcmi 11,1 dəfə artmışdır.

Yerli istehsalın artması daxili bazarda məhsul bolluğu yaratmaqla bərabər, muxtar respublikanın ixrac potensialını artırmış, idxalın həcmini isə azaltmışdır. Xarici ticarət dövriyyəsi ümumi inkişafı əks etdirən mühüm makroiqtisadi göstəricilərdən biri olub, ixracın və idxalın cəmidir. 2009-cu ildən muxtar respublikanın xarici ticarət dövriyyəsində müsbət saldo qeydə alınmış, ixracın həcmi idxalı üstələmişdir. Həmin dövrdə xarici ticarət dövriyyəsinin 51 faizini ixrac, 49 faizini isə idxal təşkil etmişdir.

Naxçıvanın müalicəvi mineral suları, təbii duzu, çay, emal olunmuş ət və meyvə məhsulları, qazlı və spirtli içkiləri, meyvə şirələri, yüksəkkeyfiyyətli tikinti materialları, o cümlədən Naxçıvan sementi, gips, daş məmulatları və digər çox sayda məhsullar ixrac potensialının artırılmasında mühüm rol oynamışdır.

Muxtar respublikanın ixrac potensialının artırılmasında qonşu dövlətlərlə yaradılan iqtisadi əlaqələr mühüm yer tutmuşdur. Belə ki, 1992-1993-cü illərdə ümummilli liderimiz Heydər Əliyevin şəxsi nüfuzu sayəsində İran ərazisindən keçməklə Azərbaycanın digər bölgələri arasında nəqliyyat əlaqəsi bərpa olunmuş, Sədərək-Dilucu və Şahtaxtı-Poldəşt sərhəd-keçid məntəqələrinin yaradılması ilə blokadada olan muxtar respublika böhranlı vəziyyətdən çıxarılmışdır. Növbəti illərdə də xarici iqtisadi əlaqələrin daha da genişləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilmiş, gömrük məntəqələrində müasir infrastruktur yaradılmış, yeni gömrük kompleksləri istifadəyə verilmiş, sərhəd-buraxılış məntəqələrinin iş rejimi artırılmışdır.

2016-cı ildə muxtar respublikada xarici ticarət dövriyyəsinin həcmi 463244,8 min ABŞ dolları təşkil etmişdir. Bir il öncəyə nisbətən ixracın həcmi 1,1 faiz artaraq 419120,8 min ABŞ dolları, idxalın həcmi isə 54,9 faiz azalaraq 44124 min ABŞ dolları səviyyəsində olmuşdur. 2016-cı ildə xarici ticarət dövriyyəsinin 9,5 faizini idxal, 90,5 faizini isə ixrac təşkil etmişdir. 1995-ci illə müqayisədə 2016-cı ildə ixracın həcminin 216,4 dəfə artması muxtar respublikada iqtisadi sahədə qazanılmış uğurların əsas göstəricilərindən biridir.

Son 8 ildə xarici ticarət dövriyyəsində qeydə alınmış uğurlar bu gün də davam etməkdədir. Belə ki, cari ilin yanvar-iyun ayları ərzində muxtar respublikada fəaliyyət göstərən müəssisə və təşkilatlar, fiziki şəxslər tərəfindən aparılan ticarət əməliyyatları nəticəsində 203822,2 min ABŞ dolları həcmində xarici ticarət dövriyyəsi yaranmışdır. Xarici ticarət dövriyyəsinin 190657,8 min ABŞ dollarını, yaxud 93,5 faizini ixrac, 13164,4 min ABŞ dollarını, yaxud 6,5 faizini idxal təşkil etmişdir. Bir il öncəyə nisbətən ixracın həcmi 1,3 faiz artmış, idxalın həcmi 30,2 faiz azalmışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

*Ailə-fermer təsərrüfatları*

# Təsərrüfatçılar fəaliyyətlərini genişləndirməklə kiçik və orta sahibkarlıq subyektlərinə çevrilirlər

***Biz, adətən, sahibkar deyəndə iri istehsal müəssisəsinin rəhbərini nəzərdə tuturuq. Fikirləşirik ki, həmin sahibkarların xeyli vəsaiti, obyektləri, işçi qüvvəsi olur. Amma bu gün hər bir sadə vətəndaş belə sahibkara çevrilə bilər. Xüsusən də kənddə yaşayıb müxtəlif təsərrüfat sahələrində çalışanlar. İstehsalla məşğul olan hər bir kənd adamı dövlətdən güzəştli şərtlərlə kredit götürüb özünün ailə təsərrüfatını genişləndirmək imkanına malikdir. Bu mənada, kəndlərimizdə artıq ailə təsərrüfatlarını quraraq hər il 15-20 min manat və hətta bundan çox gəlir götürənlər var. Biz də bu yazımızda muxtar respublikamızın ayrı-ayrı bölgələrində yaşayıb çalışan, ailə-fermer təsərrüfatları yaradan insanların kəndə, ocağa bağlılıqlarından, muxtar respublika iqtisadiyyatına verdikləri töhfələrdən bəhs edəcəyik.***



Məlumat üçün onu da bildirək ki, ötən il kənd təsərrüfatı məhsullarının istehsalının artırılması məqsədilə muxtar respublikada 6 heyvandarlıq, bir quşçuluq, bir balıqçılıq, 6 soyuducu anbar və 3 istixana təsərrüfatı fəaliyyətə başlayıb. Bütün bunların nəticəsidir ki, son illər muxtar respublikada güzəştli kreditlər hesabına 235 heyvandarlıq, 64 quşçuluq təsərrüfatı, 15 balıqçılıq, 102 arıçılıq, 196 hektar sahədə 64 bağçılıq, 10 hektar sahədə 8 üzümçülük təsərrüfatı, ümumi tutumu 14 min 30 ton olan 31 soyuducu anbar, sahəsi 127 min 162 kvadratmetr olan 21 istixana kompleksi və digər müasir müəssisələr yaradılıb.

Bu istiqamətdə qədim əkinçilik diyarı olan Şərur rayonunda da lazımi işlər görülüb. Hazırda rayonun əksər yaşayış məntəqələrində aqrar bölmədə fəaliyyət göstərən sahibkarlıq subyektləri, kiçik müəssisələr, fermer təsərrüfatları mövcuddur.

Belə yaşayış məntəqələrindən biri də Yengicə kəndidir. 5 min nəfərə yaxın sakini olan bu kənddə əhali mövcud torpaqlardan səmərəli şəkildə istifadə edir, taxılçılıq, meyvəçilik, kartofçuluq, heyvandarlıq və digər sahələrlə məşğul olur. Kənddə sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar da az deyil.

Cabbar Tağıyev Yengicə kəndində çörəkçi ailəsində dünyaya göz açıb. Deyir ki, atam yaxşı çörəkbişirən olub. Onun sexində yerli taxılın unundan dadlı-tamlı çörəklər bişirilərdi. Onun yolunu hazırda mən davam etdirirəm. Hər il taxıl əkir, məhsuldarlığı artırıram. Kənddəki lavaşbişirmə sexinin də fəaliyyətini genişləndirmişəm. Burada çörəkbişirmə texnologiyasına yaxından bələd olan 6 qadın çalışır. Müasir avadanlıqların köməyi ilə onlar ətirli çörəklər bişirirlər. Yerli taxılın ununun çörəyi isə tamlı olur. Bu səbəbdən də sexə müraciət edənlərin sayı getdikcə artır.

Sahibkar ötən ildən başlayaraq yeni bir təsərrüfat sahəsi ilə də məşğul olur. O, dövlətdən aldığı kredit hesabına quşçuluq təsərrüfatı yaradıb. Hazırda həmin təsərrüfatda 5 min baş cücə bəslənilir. Ətlik istiqamətdə yaradılan təsərrüfatda gələcəkdə yumurtalıq toyuqlar da saxlanılacaq. Hələlik 4 nəfər kənd sakininin çalışdığı quşçuluq təsərrüfatında həm istehsalın, həm də işçilərin sayının artırılması nəzərdə tutulur. Burada lazımi şəraiti olan binalar tikilib, zoobaytar tələblərə uyğun bəslənmə həyata keçirilir.

Ələkli rayonun o qədər də böyük olmayan yaşayış məntəqələrindən biridir. Bu kənddə 338 hektar ümumi torpaq sahəsi var. Kənd adamları həmin torpaqlardan lazımı qaydada istifadə edir, yerli məhsul bolluğu yaradırlar. Təkcə bir faktı qeyd edək ki, ötən il bu kənddə 200 tondan artıq kartof istehsal olunub. Həmçinin soğan, sarımsaq, meyvə-tərəvəz və heyvandarlıq məhsullarının istehsalı artıb. Bu işdə sahibkarlıqla məşğul olan fermerlərin də rolu az deyil.

Kənd sakini İbrahim Kazımov uzun illərdir, mədəniyyət sahəsində çalışan təcrübəli mütəxəssisdir. Çoxşaxəli təsərrüfata malik olan İbrahimlə onun həyətində həmsöhbət oluruq. Həyətdəki meyvə ağacları bu il də bol məhsul gətirib. Ərazinin bir tərəfində arı yeşikləri düzülüb. Bütün bunlar təsərrüfat adamının səliqə-sahmanından, işgüzarlığından xəbər verir. Onun yaratdığı ailə təsərrüfatında 10 nəfərdən artıq kənd sakini çalışır. Deyir ki, taxıl əkini sahələrini ilbəil genişləndiririk. Həm özümüzün çörəyə olan tələbatını ödəyir, həm də mal-qara üçün bol yem bazası yaradırıq. 60 baş keçimiz var. Bu il onların 40-ı əkiz bala verib. Bu heyvanların südünün, pendirinin faydası çoxdur. İlboyu süfrəmizdə təbii nemətlərdən istifadə edirik. Hələ bazara da məhsul çıxarırıq. Tonlarla kartofumuz, sarımsaq və tərəvəzimiz olur. Əkin sahələrimizi üzvi gübrələrlə münbitləşdiririk. Təsərrüfat suyumuz da boldur. Arpaçayın suyu torpaqlarımıza məlhəmdir. Belə şəraitdə niyə işləməyəsən, məhsul bolluğu yaratmayasan?

Dəstə kəndi isə Ordubad rayonunun iri yaşayış məntəqələrindən biridir. Bu kənddə müxtəlif sahibkarlıq obyektləri, lavaş sexləri, taxıl emalı müəssisəsi fəaliyyət göstərir. Builki mövsümdə 410 hektardan artıq sahədən taxıl yığılacaq. Taxılçılıq sahəsində fəaliyyət göstərən fermer kollektivlərindən birinə təcrübəli təsərrüfatçı Mehdi Quliyev başçılıq edir. Mən onu hələ ictimai təsərrüfatlar dövründən tanıyıram. Ötən əsrin 80-ci illəri idi. O vaxtlar Dəstə kəndi barlı-bəhərli ərik bağları ilə əhatələnmişdi. Bu bağlardan yüz tonlarla məhsul yığılıb daxili bazarda satışa çıxarılar, hətta Azərbaycandan kənara, Rusiyanın ayrı-ayrı şəhərlərinə göndərilərdi. Sonralar bu bağların yerində taxıl və tərəvəz əkinlərinə üstünlük verildi. Bu gün isə Dəstə Ordubad rayonunda ən çox taxıl əkib-becərən kəndlərdən biridir. Təcrübəli təsərrüfatçı Mehdi Quliyev də uzun illərdir, meyvəçiliklə yanaşı, taxılçılığa da üstünlük verib. 30 ilə yaxındır ki, onun ailə təsərrüfatı taxılçılıqla məşğul olur. İldən-ilə əkin sahələrini genişləndirərək 43 hektara çatdırıb.

Mehdi deyir ki, taxılçılığı inkişaf etdirmək üçün ərazimizdə möhkəm maddi-texniki baza mövcuddur. Belə ki, burada yaradılan taxıl emalı müəssisəsi imkan verir ki, taxılımızı üyüdək, çörəyə olan tələbatımızı yerli imkanlar hesabına ödəyək. Həmin müəssisədə lavaşbişirmə sexi də fəaliyyət göstərir. Verilən sifarişlər keyfiyyətlə yerinə yetirilir, əhalinin təminatı ödənilir.

Qeyd edək ki, kənddə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin rayon bazası da fəaliyyət göstərir. Torpaq mülkiyyətçiləri lizinq yolu ilə yeni texnikalar əldə edirlər.

Sahibkar bildirir ki, cəmiyyətin müasirtipli kombaynları köməyimizə gəlir, biçini də qısa vaxtda başa çatdıra bilirik. Çəkdiyimiz zəhmətin müqabilində də yaxşı dolanırıq.

Bu gün Culfa rayonunda da sahibkarlıqla məşğul olanlar çoxdur. Rayonun Əbrəqunus kəndində heyvandarlıq, taxılçılıq, meyvəçilik, quşçuluq və digər sahələrdə səmərəli fəaliyyət göstərən sahibkarlar keyfiyyətli məhsul istehsal etməklə böyük iqtisadi səmərə əldə edirlər.

Bu rayonda Asif Məmmədovu təcrübəli təsərrüfatçı kimi tanıyırlar. Onun başçılıq etdiyi ailə təsərrüfatında 400 baş balbas cinsi qoyun, 50 baş keçi, 10-a yaxın qaramal vardır. O, həmçinin quşçuluq təsərrüfatını da inkişaf etdirir, arıçılıqla məşğul olur. Bu vacib sahələrin inkişaf etdirilməsi sayəsində ailə təsərrüfatının gəliri ildən-ilə artır. İstehsal olunan sağlam heyvandarlıq məhsullarının isə daimi alıcısı var. Çəkilən zəhmət yaxşı da qazanc gətirir. Yaraşıqlı ev-eşiyi olan təsərrüfat başçısı övladlarını da xoş güzərana qovuşdurub. Hər birinin xoşbəxt ailəsi var.

Ailə təsərrüfatının üzvləri mal-qaranın bəslənməsi üçün 3 hektar sahədə yonca əkiblər. Həmçinin 5 hektar sahədə taxıl əkilib-becərilir. Odur ki, mal-qaranın qışlama dövründə bəslənməsi üçün yem bazası da ailə təsərrüfatının özü tərəfindən yaradılır. Qazanılan uğurlar isə göz qabağındadır.

Əhalinin ərzaqla təminatında kənd təsərrüfatının mühüm rolu vardır. Ona görə bu sahədə sahibkarlığın inkişafına dövlət tərəfindən hərtərəfli qayğı göstərilir. Aqrar sektorda fəaliyyət göstərən sahibkarlar torpaq vergisi istisna olmaqla, bütün növ vergilərdən azaddırlar. Onlara güzəştli şərtlərlə texnika, yanacaq, kredit, subsidiyalar, gübrə verilir, suvarma sistemlərinin təkmilləşdirilməsi üçün yeni infrastruktur yaradılır. Bütün bunları həyata keçirməkdə məqsəd məhsul bolluğuna nail olmaqdan, əksər kənd təsərrüfatı məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsini təmin etməkdən ibarətdir.

**Məhəmməd FƏRƏCOV**
***Naxçıvan Dövlət Radiosunun baş redaktoru***

---

***Muxtar respublikamızda özəl sektorun inkişafına göstərilən dövlət dəstəyi regionda müxtəlifprofilli sahibkarlıq sahələrinin genişlənməsinə mühüm təsir edir. Geniş çeşiddə geyimlər, xüsusilə dövlət idarələrində çalışanlar və məktəblilər üçün uniformalar istehsal edən "Zümrüd" Kiçik Müəssisəsi də bu qayğıdan bəhrələnərək qısa zaman içərisində öz fəaliyyətini genişləndirib, bazarda bu sahədə mövcud olan tələbatın böyük bir hissəsinin ödənilməsinə nail olub.***

*İstehsal müəssisələri*

# *"Zümrüd"* Kiçik Müəssisəsi fəaliyyətini genişləndirir



"Zümrüd" Kiçik Müəssisəsi 1997-ci ildə yaradılıb. Müəssisə kollektivi ötən dövr ərzində öz işini xeyli təkmilləşdirib, bu sahənin incəliklərini mənimsəyib. Müəssisə ilə tanış olduqda sahibkar Etibar Hacıyev bildirdi ki, onlar ilk dəfə məktəbli formalarının tikilişi ilə məşğul olmağa başlayıblar. O zaman cəmi 6 nəfərlik bir işçi heyəti ilə işə başlayan bu müəssisə onlara göstərilən dövlət qayğısı ilə 2011-ci ildə yeni binaya köçürülüb. Hazırda istehsal gücü gün ərzində 150 dəst kostyum olan "Zümrüd" Kiçik Müəssisəsində Türkiyə, İtaliya, Yaponiya və Almaniya mənşəli müasir rəqəmsal avadanlıqlar qurulmuş və Türkiyədən gətirilən yüksəkkeyfiyyətli parçalardan həm məktəblilər, həm də hüquq-mühafizə orqanları işçiləri üçün uniformalar tikilir.

Sahibkar onu da əlavə etdi ki, müəssisədə tikilən məktəbli formalarına hazırda yüksək tələbat vardır. Buna görə də hazırlanan geyim dəstlərinin yüksək keyfiyyətdə olmasına ciddi fikir verilir. Bunun üçün müəssisəyə bacarıqlı ustalar cəlb olunub. Çoxu qadınlar olan usta dərzilər alıcıları razı salmaq üçün keyfiyyətli geyimlər tikməyə səy göstərirlər. Əməyimiz dövlət tərəfindən yüksək qiymətləndirilir və bu da daha yaxşı məhsul istehsal etmək üçün bizi ruhlandırır. Belə ki, müəssisəmiz 2012-ci ildə ilin şirkəti, 2015-ci ildə isə ilin ən fəal işəgötürəni nominasiyasında qalib olub, mükafatlandırılıb. Bunlarla yanaşı, bu il aprel ayının 25-də Sahibkarlar günündə ölkə başçısının sərəncamı ilə bir qrup naxçıvanlı sahibkar arasında mənim də "Tərəqqi" medalı ilə təltif olunmağım fəaliyyətimizə verilən ən böyük mükafatdır. Düşünürəm ki, bizə verilən belə bir yüksək qiymət gələcək fəaliyyətimiz üçün ən yaxşı stimuldur. Bütün bunlara, sahibkarlar üçün yaradılan şəraitə görə dövlətimizə minnətdaram.

Sahibkarlıq fəaliyyəti bacarıq qədər də səbir tələb edən bir sahədir. Təcrübə göstərir ki, əgər sahibkar öz işinə yaradıcı münasibət göstərirsə, onun gördüyü hər bir iş dövlət tərəfindən dəstəklənəcək və həyata keçirilən hər bir layihə öz real qiymətini alacaq. Naxçıvanda geyim sektorunda uğurlu fəaliyyətini davam etdirən "Zümrüd" Kiçik Müəssisəsi də bunlardan biridir.

**Əli CABBAROV**

---

***Naxçıvanda yol-nəqliyyat infrastrukturunun müasir standartlar səviyyəsinə çatdırılması göstərilən xidmətin keyfiyyətini yüksəltmiş, beynəlxalq əməkdaşlığın genişləndirilməsi istiqamətində mühüm addımlar atılmışdır.*** Hesabat dövründə nazirliyin reyd komissiyası Nəqliyyat müfəttişliyi və təhlükəsizlik şöbəsi ilə birlikdə reydlər keçirmiş, sərnişindaşıma ilə məşğul olan avtonəqliyyat vasitələrinin təmizliyinə, sürücülərin geyim formasına, şəhərdaxili və rayonlararası marşrutlarda hərəkət qrafikinə nəzarəti artırmışdır.

# Naxçıvanda sərnişindaşıma uğurla həyata keçirilir

Bu ilin birinci rübündə yerli və beynəlxalq marşrut xətləri üzrə daşınmalar uğurla həyata keçirilmiş, Naxçıvan-İqdır və Naxçıvan-Ərzurum marşrutları açılmışdır. Muxtar respublika daxilində sərnişindaşıma xidmətinin səviyyəsi daha da yüksəldilmiş, fəaliyyətdə olan 139 marşrut xəttində 305 avtobusla rayon mərkəzləri və kəndlərin hamısı marşrutla təmin edilmişdir. Bu dövrdə İran İslam Respublikası ərazisindən keçməklə Naxçıvan-Bakı-Naxçıvan marşrutu üzrə Naxçıvandan Bakıya 7997 sərnişin, əks-istiqamətdə isə 9256 sərnişin daşınmışdır.

Muxtar respublikanın istirahət və turizm mərkəzlərinə, o cümlədən hazırda yay mövsümünün başlaması ilə əlaqədar Uzunoba çimərliyinə, Ağbulaq İstirahət Mərkəzinə avtobus marşrutları açılmış, turlar təşkil edilmişdir. Həmçinin taksi fəaliyyəti göstərən sürücülərin hər ay 4 dəfə qrup şəklində muzeylərə ekskursiyaları təşkil olunmuşdur.

Muxtar respublikada avtonəqliyyat vasitələri ilə təhlükəsiz sərnişin daşınması, marşrut qrafikinə nəzarət olunması məqsədilə yeni nəsil texnologiyalarından istifadə edilməsinə başlanmışdır. Belə ki, Naxçıvan-Bakı marşrutunda işləyən avtobuslarda Naxtel-4G GPS monitorinq izləmə sistemi quraşdırılmışdır. Naxçıvan şəhərdaxili marşrutunda işləyən avtobus və taksilərə isə GPS-lərin quraşdırılması işi davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin mətbuat xidməti***

---

# Torpaq mülkiyyətçilərinin iştirakı ilə maarifləndirici tədbir

***Dünən Şərur rayon Kürkənd kəndində "Mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən torpaq mülkiyyətçiləri tərəfindən ödənilən məcburi dövlət sosial sığorta haqlarının mahiyyəti və bu sahədə tətbiq olunan elektron xidmətlər" mövzusunda maarifləndirici tədbir keçirilib.***

Əvvəlcə Şərur Rayon İcra Hakimiyyətinin əməkdaşı Fizuli Hüseynov keçirilən tədbirin əhəmiyyətindən söz açıb.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin baş məsləhətçisi Tural Cəfərov torpaq üzərində mülkiyyətin növlərindən danışıb. O, torpaq üzərində hüquqi və fiziki şəxslərin xüsusi mülkiyyət hüququ, dövlət və bələdiyyə torpaqlarının özəlləşdirilməsi, alqı-satqısı, vərəsəliyə keçməsi, bağışlanması, dəyişdirilməsi və torpaqla bağlı digər əqdlərin bağlanma şərtləri barədə məlumatı tədbir iştirakçılarının nəzərinə çatdırıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun əməkdaşı Elçin Səfərov mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən torpaq mülkiyyətçiləri tərəfindən ödənilən məcburi dövlət sosial sığorta haqlarının mahiyyəti və bu sahədə tətbiq olunan elektron xidmətlər haqqında danışıb. Sonra fondun əməkdaşı Toğrul Hüseynov, fondun Şərur Rayon Şöbəsinin müdiri Elnur Əhmədov rayonda bu istiqamətdə görülmüş işlərdən bəhs ediblər.

Tədbirin sonunda torpaq mülkiyyətçilərini maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Naxçıvan dünən

# "Ümidlər doğrulacaqmı?"
# və ya dünəndən bu günə qısa ekskurs

Muxtar respublikamızın düşdüyü blokada şəraitində yarımçıq qalmış tikililərin taleyindən söhbət açmaq bəlkə də yersiz görünür. Amma elə məsələlər var ki, onlar barədə susmaq, söz deməmək olmur. Axı bu problemlər çoxlarının hər gün üzləşdiyi çətinliklərdəndir. Güznüt kənd 8 illik məktəbinin müəllim və şagirdlərinin illərdən bəri həsrətini çəkdikləri məktəb binası. O məktəb binası ki, təməli 7-8 il bundan əvvəl qoyulub. O vaxtlar nə blokada var idi, nə də ki, material qıtlığı. Nədənsə, hansı biganəliyin ucbatındansa 464 yerlik məktəb binasının tikintisi ildən-ilə keçirildi və nəhayət indiki şəraitdə tamamilə unuduldu.

Vaxtilə köhnə, yöndəmsiz məktəb binasının yanında, idman meydançasının ərazisində yerləşəcək məktəb binasının özülü qazılanda, burada qrunt sularına qarşı borular düzüləndə, nəhayət beton bloklar hazırlananda çoxları sevindi. Məktəblilər inandı ki, nəhayət 2 min nəfərə yaxın əhalisi olan Güznüt kəndində də məktəb binası tikiləcəkdir. Amma əfsuslar olsun ki, bu sevinc, bu arzu illər uzunu şagirdlərin ürəyində qaldı.

Hazırda şagirdlər süd emalı məqsədilə tikilmiş, sonra isə tütün qurutmaq üçün istifadə edilən köhnə, yöndəmsiz binada dərs keçirlər. Binanın tavanından boylanan paslı mismarlar tütünçülərdən qalan yadigarlardandır. Məktəbə yolu düşənlər yaxşı bilir ki, bu uyğunlaşdırılmış binada dərs keçmək, uşaqlara elm öyrətmək olduqca çətindir. Darısqal döşəməsinə torpaq tökülmüş, divarları bir neçə yerdən cadarlamış qaranlıq otaqda dərs keçmək hansı səmərəni verər? Siniflər bir-birinə o qədər yaxındır ki, onların birində dərs deyən müəllimin, dərsə cavab verən şagirdin səsi o biri siniflərdə də eşidilir. Daha doğrusu, səs səsə qarışır. Darısqal dəhlizdə iki nəfərin yan-yana addımlaması qeyri-mümkündür.

Bütün bunlara dözmək olar, amma binanın uçmaq təhlükəsi var. Belə görkəmdə olan binanı təmir etmək də müşkül məsələdir. Bu vəziyyətlə əlaqədar məktəbin direktoru İ.Babayev aid təşkilatlar qarşısında dəfələrlə məsələ qaldırsa da, heç bir müsbət nəticəsi olmayıb.

Lakin bizi düşündürən odur ki, nəyə görə illərdən bəri şagirdləri narahat edən bu vacib məsələ həll edilməyib? Halbuki ötən illər ərzində məktəb binasını tikmək mümkün idi. Onda istənilən qədər tikinti materialları da var idi. Həmin materiallar məktəbin təməli qoyulan yerdə üst-üstə qalaqlanmışdı. Amma illər ötdükcə yavaş-yavaş "əridi". İndi 10-15 beton blokdan savayı heç nə gözə dəymir.

Bizə belə gəlir ki, lap elə indiki şəraitdə də burada yeni bina tikmək mümkündür. Hörgünü yerli materiallar hesabına və yerli qüvvə ilə aparmaq olar. Heç uzağa getməyək, binanın özülündən çıxarılmış torpaqla yüz minlərlə kərpic kəsmək olar. Onsuz da indiki binaların çoxu belə kərpiclərlə hörülür. Kənddə həmin kərpiclərdən çoxlu bina tikənlər var. O ki qaldı qalan materiallara, köhnə məktəb binasının materiallarından istifadə edilə bilər.

Bütün bunları yazmaqda onu demək istəyirik ki, hər bir işə əlac tapmaq mümkündür. Atalar demişkən: "Çobanın könlü olsa..." Amma, nədənsə, əməli iş görən tapılmır. Uçmaq təhlükəsi olan sinif otaqlarında dərs keçən şagirdlər yeni məktəb binasının ümidi ilə yaşayırlar. Bəs bu ümid nə vaxt doğrulacaq?

***"Şərq qapısı" qəzeti***
***1994-cü il 16 iyul***

### Əvvəl belə idi: Bəs indi?

***23 il əvvəl "Şərq qapısı" qəzetində dərc olunmuş bu məqalə bir kənd məktəbinin timsalında muxtar respublikamızın məktəblərinin ozamankı durumunu gözlər önünə sərir. Bəli, o zaman məktəb binası deyiləndə ilk yada düşən sınıq-salxaq qapı-pəncərələri olan sinif otaqları, qış boyu dərs zamanı tüstüləyən, belə demək mümkünsə, göz çıxaran sobalar, istismar müddətini çoxdan başa vurmuş partalar, stol və stullar, yağış yağanda gölməçəyə dönən sinif otaqları olur. Bütün bu mənzərələr klassik sovet məktəbinin dəyişməz simvolları idi. Döşəmələri neftlə silinən məktəb binalarının qazanxana iyi verməsi adi hala çevrilmişdi. Ozamankı təmir-tikinti idarələri hər yay "cari təmir" adı altında məktəbi təmir etsələr də, işlər yalnız kağız üzərində qalırdı və növbəti dərs mövsümünə "hazır olan" məktəb binasına gələn uşaqlar və müəllimlər təkrar məyus olurdular.***

## və bu gün



# Güznüt kənd tam orta məktəbi bu gün müasir binada fəaliyyət göstərir

1997-ci ildə kənddə yeni məktəb binası istifadəyə verildi, 2003-cü ildə isə burada yenidənqurma işləri aparıldı. 2014-cü ilin 3 noyabr tarixi Güznüt sakinləri üçün əlamətdar hadisələrlə yadda qaldı, həmin gün kənddə yeni sosial obyektlər istifadəyə verildi. Onların arasında əsaslı şəkildə yenidən qurulan Güznüt kənd tam orta məktəbinin binası da var idi. Çox gözəl şəraitin yaradıldığı binanın istifadəyə verilməsi valideynlərin də, şagird və müəllimlərin də üzünü güldürdü. Çünki artıq bütün çətinliklər arxada qalmış, muxtar respublikanın müstəqillik illərindəki inkişafının bariz nümunəsi olan müasir məktəb binası uşaqların ixtiyarına verilmişdi. Həmin gün uşaqların sevincini bölüşməyə muxtar respublika rəhbəri də gəlmiş, kənd sakinlərini, eləcə də məktəbliləri təbrik etmiş, pedaqoji kollektivə öz ürək sözlərini və tövsiyələrini çatdırmışdı. Bəli, muxtar respublikanın sosial-iqtisadi inkişafı üzrə 2014-2018-ci illəri əhatə edən Dövlət Proqramı çərçivəsində əsaslı şəkildə yenidən qurulan binası olan kənd məktəbi güznütlülər üçün fəxr olunası təhsil ocağına çevrilmişdi və Naxçıvan şəhərindəki ən müasir məktəblərdən heç nə ilə geri qalmırdı.

Hazırda 324 şagird yerlik məktəbdə 3-ü elektron lövhəli olmaqla, 18 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, kompüter otağı, kitabxana, idman zalı, hərbi kabinet, şahmat sinfi və bufet var. Məktəb-valideyn münasibətlərinin düzgün qurulması nəticəsində şagirdlər tədris prosesində çətinlik çəkmir, keçilən dərsləri daha yaxşı mənimsəyirlər. Bu təhsil ocağının kompüter otağında internetə çıxışı olan 21 kompüter var. Məktəbin elektron dərsliklərlə təminatı və elektron lövhəli siniflərin istifadəyə verilməsi dərslərin virtual tədrisinə şərait yaradıb. Distant tədris mərkəzinə qoşulan məktəbdə muxtar respublikanın digər təhsil ocaqları ilə tədris mübadiləsinin aparılması, eləcə də muzeylərlə əlaqələrin qurulması təmin edilib. Məktəbin kitabxana fondunda 5 mindən artıq kitab vardır. Şagirdlərə mütaliə vərdişlərinin aşılanması onların asudə vaxtlarının səmərəli təşkili baxımından mühüm əhəmiyyət daşıyır.

Ən qədim oyun növlərindən biri olan şahmat uşaq və yeniyetmələrin əqli inkişafına təsir edən mühüm vasitələrdən biridir. Güznüt kənd tam orta məktəbində şahmat fənninin tədrisi şagirdlərin zehni inkişafına, məntiqi düşünmə qabiliyyətlərinə əhəmiyyətli təsir göstərir. Bütün bunların nəticəsidir ki, şagirdlərin digər fənlərdən təlim göstəriciləri də nəzərəçarpacaq dərəcədə artıb.

Məktəbdə şagirdlərin vətənpərvərlik ruhunda tərbiyəsinə və hərbi biliklərin dərindən öyrənilməsinə də diqqət yetirilib, hərbi kabinə yaradılıb. İdman zalında müxtəlif idman növləri üzrə dərslərin tədrisi və şagirdlərin fiziki hazırlıqlarının artırılması üçün hər cür şərait mövcuddur.

Güznüt sakinləri isə övladları üçün bu şəraiti yaradanlara minnətdardırlar. Tədris ili boyu məktəbin müəllim və şagirdləri kitabxana, laboratoriya, fənn kabinələrindən səmərəli istifadə edirlər. Bu da tədrisin keyfiyyətinin yüksəlməsinə öz təsirini göstərir. Hazırda müxtəlif universitetlərə sənəd vermiş məktəb məzunlarının nəticələri təhlil edilir, gələcəkdə görüləcək işlər planlaşdırılır.

***Ümidlər doğrulub, sabaha inam artıb***

Bu gün ölkəmizdə Heydər Əliyev siyasi kursunun uğurla davam etdirilməsinin nəticəsidir ki, Azərbaycanda sabitlik və sosial-iqtisadi yüksəliş təmin olunub. Ölkəmizdə mövcud olan sabitlik bütün sahələrlə yanaşı, təhsilin də hərtərəfli inkişafı ilə səciyyələnir. Prioritet sahə olan təhsil bu gün Azərbaycan dövlətinin sosial inkişaf xəttində mühüm yer tutur. Ona görə ki, təhsilə qoyulan sərmayə, göstərilən qayğı təkcə ölkəmizin bu gününə deyil, eyni zamanda gələcəyinə xidmət edir, yüksək intellektual potensialın formalaşmasını şərtləndirir. Bu gün davamlı olaraq təhsil sahəsində islahatlar həyata keçirilməkdədir. Bütün bunlar bir daha əmin olmağa əsas verir ki, müasir Azərbaycan təhsili özünün zəngin mütərəqqi ənənələrinə, milli və mənəvi, ümumbəşəri dəyərlərə, beynəlxalq təcrübəyə əsaslanaraq daha da inkişaf edəcəkdir. Çünki qazanılan bütün nailiyyətlər məhz Heydər Əliyev ideyalarından güc alır. Artıq 20 ildən çoxdur, təkcə güznütlülərin deyil, minlərlə Naxçıvan sakininin "Ümidlər doğrulacaqmı?" sualına cavab tapılıb, demək olar ki, hər bir kənd-qəsəbədə, hər bir şəhərdə ən müasir tələblərə cavab verə bilən məktəb binaları həyata vəsiqə alıb. Diqqətçəkən məqam isə ondan ibarətdir ki, xalqı maraqlandıran bütün sualların cavabı sözdə deyil, əməldə verilib. Bu isə muxtar respublikada yaşayıb-yaradan hər bir insanın sabaha inamını artırır, bizi daha yaxşı işləməyə, ölkəmizin çiçəklənməsi naminə daha böyük fədakarlıqlar göstərməyə sövq edir.

**Səbuhi HÜSEYNOV**

# İstedadlı qadınların əl işlərindən ibarət sərgi-satış təşkil edilib



***Ordubad Rayon Mədəniyyət Evinin foyesində rayonun istedadlı qadınlarının əl işlərindən ibarət sərgi-satış keçirilib.***

Tədbirdə Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikasında qadınların əməyinin qiymətləndirilməsi daim diqqət mərkəzindədir. Göstərilən qayğının nəticəsidir ki, rayon üzrə təhsil, səhiyyə və mədəniyyət müəssisələrində çalışanların 76 faizini qadınlar təşkil edir. Rayondakı qadınlardan 23 nəfəri Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının müxtəlif dövlət mükafatlarına layiq görülüb. Artıq bir neçə ildir ki, istedadlı qadınların əl işlərinin sərgi-satışı təşkil edilir. Ordubad rayonunda keçirilən sərgidə də bütün yaşayış məntəqələrindən istedadlı qadınlar iştirak edirlər. Tədbirin təşkilində məqsəd rayon üzrə qadınların istedad və bacarıqlarını üzə çıxarmaq, milli dəyərlərimizi qorumaq, adət-ənənələrimizi gənclərə aşılamaq, mənəvi irsimizi yaşatmaqdır.

İcra başçısı belə sərgilərin keçirilməsində, milli dəyərlərimizin yaşadılmasında qadınlarımıza uğurlar arzulayıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edib. O bildirib ki, bu gün ölkəmizin hərtərəfli inkişafı, mövcud sabitlik, dövlət-qadın siyasətinin uğurla həyata keçirilməsi, ailə dəyərlərinə yüksək qiymət verilməsi qadınların ölkəmizin ictimai həyatında fəal iştirakına və istedadlarının üzə çıxarılmasına imkan verir. Naxçıvan Muxtar Respublikasında qadınların bütün sahələrdə fəaliyyəti təmin olunur, min illər ərzində formalaşan milli dəyərlərimiz yaşadılır. Yaradılan şəraitin nəticəsində muxtar respublikada istedadlı qadınların sayı ildən-ilə artır.

Qeyd olunub ki, bu gün Ordubad rayonunda yaşayan istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satışın təşkil edilməsi də mənəvi irsimizin yaşadılmasına xidmət edir.

İstedadlı qadınlardan Məleykə Rəhimli çıxış edərək bildirib ki, muxtar respublikada həyata keçirilən quruculuq tədbirləri sayəsində ən ucqar sərhəd kəndlərimizdə də qadınların iş və məişət şəraiti yaxşılaşdırılıb. O, göstərilən diqqət və qayğıya görə muxtar respublika rəhbərinə minnətdarlığını bildirib.

Sonra sərgi-satışa baxış olub. Sərgi-satışda rayon üzrə onlarla qadının 250 rəsm və əl işi nümayiş etdirilir.

**Abbas SEYİD**

***Muxtar respublikamızda sağlamlıq imkanları məhdud uşaqların asudə vaxtlarını səmərəli təşkil etmək, eyni zamanda istedadlarını aşkara çıxarmaq, həmçinin onların yaradıcılıq imkanlarını genişləndirmək, intellektual səviyyələrini artırmaq üçün təşkil edilən məqsədyönlü tədbirlər diqqət mərkəzində saxlanılır.***

# Sağlamlıq imkanları məhdud uşaqlar arasında *"Yurdumuzu tanıyaq"* adlı bilik müsabiqəsi keçirilib

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 11 iyul tarixdə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində sağlamlıq imkanları məhdud uşaqların intellektual dünyagörüşlərini nümayiş etdirmələri üçün "Yurdumuzu tanıyaq" bilik müsabiqəsi təşkil etməsi həmin tədbirlərin davamıdır. Müsabiqədə sağlamlıq imkanları məhdud 10 uşaq iştirak edib. Onlara 24 sual təqdim edilib.

Müsabiqənin qaliblərinə diplomlar, digər iştirakçılara isə həvəsləndirici diplomlar verilib.

Məlumat üçün bildirək ki, Naxçıvan Uşaq Bərpa Mərkəzində müalicə alan hərəkət qabiliyyəti məhdud bir uşaq mərkəzə yenicə istifadəyə verilmiş əlillər üçün xüsusi nəqliyyat vasitəsi ilə müsabiqəyə gətirilib.

Naxçıvan Regional İnformasiya Mərkəzində isə görmə qabiliyyəti məhdud məktəbli uşaqlar üçün "Könül işığı" jurnalının "Şəfəq" adlı xüsusi buraxılışı hazırlanıb.

Qeyd edək ki, tədbir "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"ndan irəli gələn vəzifələrin yerinə yetirilməsi məqsədilə keçirilib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

***Son günlər havalar həddindən artıq isti keçir. İqlimin birdən-birə belə istiləşməsi insanların sağlamlığına mənfi təsir göstərir. Bəzən istinin təsirindən qan dövranı kəskin pozulur ki, bu da çox ağır fəsadların yaranmasına səbəb ola bilər. Bəs günvurmadan necə qorunmaq olar? Naxçıvan Muxtar Respublika Xəstəxanasının Təcili təxirəsalınmaz şöbəsinin müdiri Pəri Əliyeva ilə söhbətimiz bu mövzudadır.***

*Həkim məsləhəti*

# Özünüzü günvurmadan qoruyun

*– Pəri həkim, muxtar respublikamızda yay mövsümündə qızmar hava şəraiti ilə rastlaşırıq. Hər il günvurma halları ilə bağlı şöbənizə müraciət edənlər olur. Bəs bu il vəziyyət necədir?*

– Bu yay artıq Naxçıvan Muxtar Respublika Xəstəxanasına 8 nəfər günvurma ilə əlaqədar müraciət edib. Ambulator müalicədən sonra onlar sağalaraq evə buraxılıblar. Bu, əvvəlki illərə nisbətən yaxşı göstəricidir. Əhalinin sosial şəraitinin yaxşılaşdırılması, yaşıllıq zolaqlarının genişləndirilməsi, yeni parkların salınması, gündən qorunma üçün avtobus dayanacaqlarının sərnişinlərin istifadəsinə verilməsi və digər amillərlə yanaşı, əhali arasında aparılan səhiyyə maarifi işi də günvurmanın azalmasında mühüm rol oynayır.

*– İnsanların çoxu aktiv həyat tərzi yaşayır – işləyir, hardasa oxuyur və sair. Qısaca, yol gedib-gəlir, müəyyən zamanlarda Günəş şüasının təsirində olur. Təbii ki, bu da onlardan kiminsə həmin xəstəliklə üzləşməsinə gətirib çıxarır. Onu da bilmək istərdik ki, günvurma hallarına daha çox kimlər məruz qalır?*

– Günvurma havanın hərarətinin insanın bədən temperaturundan yüksək olduğu hallarda, 15 dəqiqədən artıq birbaşa Günəş şüalarının təsiri altında qaldıqda baş verir. İnsan orqanizminin müəyyən özünümüdafiə funksiyaları var ki, bu funksiya uşaqlarda tam formalaşmadığı üçün onlar daha tez günvurmaya məruz qalırlar. Bundan əlavə, yaşlı insanlar, ürək-damar xəstəliyi, şəkərli diabet xəstələri, artıq çəkisi olanlar, inşaatçılar, kənd təsərrüfatı işçiləri günvurmaya daha çox məruz qala bilərlər.

*– İnsanlarda günvurma ilə əlaqədar hansı əlamətlər müşahidə edildikdə mütləq həkimə müraciət olunmalıdır?*

– Günvurmanın əsas əlamətləri qızarmış sifət, dəhşətli başağrısı və başgicəllənmədir. Bu əlamətlərdən sonra gözlərin qaralması, ürəkbulanması, müəyyən hallarda isə qusma baş verir. Bəzən burundan qan axması və görmə qabiliyyətinin pozulması da olur. Yardım göstərilmədikdə xəsarət alan hu-



şunu itirir, təngnəfəs olur, nəbzi sürətlənir, ürək fəaliyyəti pozulur. Günvurma dəri yanması ilə də müşayiət olunur.

Ümumiyyətlə, günvurmanın yüngül, orta və ağır olmaqla, 3 forması var. Yüngül formada xəstənin vəziyyəti kafi olur, onda başağrıları, başgicəllənməsi, ürəkbulanma, təngnəfəslik, göz bəbəyinin genişlənməsi müşahidə edilir. Yüngül günvurmada xəstəyə ilkin yardım göstərildikdən, sərin yerə aparılaraq su verildikdən sonra o, özünə gəlir. Orta dərəcəli günvurma zamanı kəskin başağrıları, başgicəllənmə, huşun müvəqqəti itməsi, qusma, təzyiqin yüksəlməsi, temperaturun 39-40 dərəcəyə çatması, qulaq batması baş verir. Ağır formalı günvurma zamanı isə təzyiq aşağı düşür, bədənin hərarəti 40 dərəcədən yuxarı qalxır, tənəffüs sistemi, mərkəzi sinir sisteminin fəaliyyəti pozulur. Nəticədə, xəstə komaya düşə, dünyasını dəyişə bilər.

Orta və ağır dərəcəli günvurma zamanı mütləq, ilk növbədə, təcili tibbi yardıma müraciət etmək lazımdır. Təcili tibbi yardım briqadası gələnə qədər isə zərərçəkənə ilkin yardım göstərilməlidir. Bunun üçün günvurmaya məruz qalan şəxsi sərin, kölgəli yerə aparmaq, arxası üstə uzatmaq, paltarının yaxasını açmaq, bədənə soyuq kompres qoymaq, sərin su içirtmək lazımdır. Təcili yardım gəldikdə isə xəstəyə ixtisaslaşmış yardım göstərilməli, lazım gələrsə, xəstəxanaya aparılmalıdır.

*– Bəs günvurmadan necə qorunmaq olar? Bununla bağlı insanlara hansı tövsiyələri verə bilərsiniz?*

– Havanın hərarətinin yüksək olduğu günlərdə insanlar səhər saat 11-dən 17-dək açıq havada gəzməməlidirlər. Çünki bu zaman ultrabənövşəyi, infraqırmızı şüalarla təmasda oluruq. Günəş şüaları insan bədənində suyun buxarlanmasına gətirib çıxarır, maddələr mübadiləsi pozulur. Bu hal yarandıqda hətta zəif Günəş şüasının təsirindən də günvurma baş verə bilər. İnsanlar bol maye qəbul etməli, evdən çıxarkən mütləq baş örtüyü örtməli, eynək taxmalı, yüngül, əsasən, pambıq və kətan parçadan tikilmiş, açıqrəngli geyimlərə üstünlük verməlidirlər. Çünki açıqrəngli paltarlar Günəş şüalarını əks etdirir, tündrəngli geyimlər isə Günəş şüalarını udaraq bədənin hərarətinin artmasına səbəb olur. Kip paltarlardan, sintetik parçadan tikilmiş geyimlərdən qaçmaq lazımdır.

Günəşin ultrabənövşəyi şüalarının mənfi təsirindən qorunmaq üçün yay aylarında çimərliklərə səhər saat 11-ə qədər və axşam saat 17-dən sonra getmək olar.

*– Bu fasilədə düzgün qidalanma insanların sağlamlığı üçün nə dərəcədə mühümdür?*

– Bütün mövsümlərdə, xüsusən də isti yay günlərində düzgün qidalanmanın sağlamlığa təsiri önəmlidir. Belə ki, həmin dövrdə yüngül qidalar qəbul edilməli, göyərti və meyvə-tərəvəzə, quş ətindən hazırlanmış yeməklərə, müxtəlif növ salatlara üstünlük verilməlidir. Vitamin mənbəyi sayılan çiyələk, qarpız, gilas, ərik, şaftalı kimi meyvələr də çox yeyilməlidir. Qazlı içkilərlə müqayisədə təzə sıxılmış meyvə şirələrinə üstünlük vermək, süd, ayran, bitki və meyvə çayları içmək məqsədəuyğundur. Açıq satılan qidalardan və sulardan uzaq durmaq məsləhətdir. Yayda artan temperatur uşaqların maddələr mübadiləsinə birbaşa təsir göstərdiyindən onların da qidalanmasında köklü dəyişikliklər baş verir. Bu vaxt qidalanma zamanı alınan kalorilər bədənin temperaturunu isti saxlamaq üçün deyil, onu soyutmaq üçün sərf olunur. Uşaqların hərəkətliliyi vücudun maddələr mübadiləsini sürətləndirir.

Suyun əhəmiyyətli miqdarı bədəndən tərlə xaric olur. Onunla birlikdə duz da xaric olur. Uşağın kompot, su ilə həll edilmiş şirələrdən və nəhayət, adi sulardan (onların tərkibində mineral və duzlar var) istifadə edilməsi maye balansını düzgün saxlamağa kömək edər.

*– Müsahibə üçün sağ olun!*

**✍ Fatma BABAYEVA**

## Muxtar respublikada epidemioloji vəziyyət sabitdir

*Muxtar respublikamızda iyun ayında epidemioloji vəziyyət sabit olub, zəhərlənmələr baş verməyib. İnfeksiya ocaqlarında profilaktik və epidemiya əleyhinə tədbirlər həyata keçirilib.*

Yeni doğulmuş uşaqların 98,7 faizi idarəolunan yoluxucu xəstəliklərə görə peyvənd alıblar. Mövsümi xəstəliklərin və zəhərlənmələrin qarşısını almaq məqsədilə qidalanma sənayesi, kommunal, ictimai iaşə, ticarət, su təchizatı, müalicə-profilaktika müəssisələrinin rəhbərlərinə müvafiq göstərişlər verilib, su təchizatı sistemlərində, ictimai, inzibati və fərdi binalarda, məişət tullantıları qoyulan meydançalarda 32 min 130 kvadratmetr sahədə dezinfeksiya və 22 min 560 kvadratmetr ərazidə dezinseksiya tədbirləri həyata keçirilib.

Uşaq və yeniyetmə müəssisələrində, məktəblərdə monitorinqlər, eyni zamanda maarifləndirici tədbirlər aparılıb.

Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin əməkdaşları tərəfindən hepatit virusu ilə yoluxmaların qarşısının alınması məqsədilə vətəndaşlarla birbaşa ünsiyyətdə olan xidmət obyektlərində – stomatoloji müəssisələrdə, oyun zallarında, ictimai iaşə və satış bazarlarında, ərzaq istehsalı və digər xidmət obyektlərində sanitar-gigiyenik qaydalara əməl olunmasına, işlədilən alətlərin sterilizasiya edilməsinə, obliqat qrup kimi işçilərin tibbi müayinədən keçmələrinə, dezinfeksiya işləri ilə bağlı monitorinq aparılıb, müvafiq tədbirlər görülüb.

İyun ayı ərzində bakterioloji laboratoriya fəaliyyətini davam etdirib. 77 su, 17 yuyuntu və 1015 digər nümunələrin müayinələri aparılıb.

Obliqat qrupların bakterioloji müayinələri diqqət mərkəzində saxlanılıb, səhiyyə üzrə 366, qidalanma sənayesi, ictimai iaşə və ticarət üzrə 84, kommunal sahələr üzrə 92, sürücülük üzrə 2 nəfər olmaqla, bütövlükdə, 544 nəfər müayinədən keçib.

Əhalinin sanitariya sahəsində maarifləndirilməsi məqsədyönlü şəkildə həyata keçirilib, 48 mühazirə oxunub. Əhalinin sanitariya-epidemioloji vəziyyətinin yaxşılaşdırılması məqsədilə muxtar respublikanın sanitariya-epidemioloji xidmət orqanları tərəfindən obyektlər sanitar-gigiyenik vəziyyətə görə yoxlanılıb, aşkar olunmuş nöqsanların aradan qaldırılması üçün xəbərdarlıqlar edilib.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

*Yeni nəşrlər*

## “Xəbərlər” jurnalının növbəti sayı işıq üzü görüb




***AMEA Naxçıvan Bölməsinin “Xəbərlər” jurnalının növbəti sayı çapdan çıxıb. “Tusi” nəşriyyatında işıq üzü görən jurnalın bu ilə olan sayca ikinci nömrəsi təbiət və texniki elmlər seriyasına həsr edilib.***

Jurnalda bölmə ilə yanaşı, Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu, Akademik Həsən Əliyev adına “Araz” Elm-İstehsalat Birliyi, Azərbaycan Dövlət Aqrar Universiteti və Əkinçilik Elmi-Tədqiqat İnstitutu əməkdaşlarının kimya, biologiya, fizika, astronomiya, informatika, coğrafiya sahəsindəki məqalələri yer alıb.

Mütəxəssislərin elmi-tədqiqat işlərində əldə etdikləri yeni nəticələr “Naxçıvan Muxtar Respublikası yeraltı sularının formalaşması və kimyəvi xüsusiyyətləri”, “Naxçıvan Muxtar Respublikası ərazisində yayılmış incəçətir növlərinin tibbi əhəmiyyəti və təbii ehtiyatı”, “Naxçıvan Muxtar Respublikasının az yayılmış aborigen üzüm sortu – Daş qara”, “Naxçıvan Muxtar Respublikasının meşə ekosistemində yayılan ağac və kolların ekoloji qruplar üzrə paylanması”, “Naxçıvan Muxtar Respublikası şəraitində bərk buğda hibridlərinin təsərrüfat qiymətli əlamətlərinin tətbiqi”və digər başlıqlı yazılar da öz əksini tapıb.

**AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi**

*Yazmasaq, olmur*

# Bina divarı, yoxsa yazı taxtası?

*Böyük satirik, ədib Cəlil Məmmədquluzadənin yaşadığı dövrdən uzun müddət keçsə də, əsərlərində əks olunan məsələlərin bəziləri günümüzdə də aktualdır. Görkəmli dramaturq öz əsərlərində cəmiyyət həyatında baş verən eybəcərlikləri üzə çıxarır, avamlığı, geriliyi, cahilliyi, savadsızlığı tənqid edir. Onun bu mövzuda qələmə aldığı əsərlərindən biri də “Saqqallı uşaq” hekayəsidir.*

Hekayənin qəhrəmanı Kəblə Əzim nisyə verdiyi südün və yumurtanın hesabını itirməmək üçün divara inək, onun yanında yumurta şəkli çəkir. Kəblə Əzim savadsız adam olduğu üçün bu şəkilləri divara çəkirdi ki, nisyə verdiyi südün, yumurtanın pulu yadından çıxmasın. Neyləsin, yazıq kişi yazı bilmirdi, pozu bilmirdi. O dövrdən çox vaxt keçsə də, bu gün də Kəblə Əzimlər vardır. Nəzərə alsaq ki, o dövrün yaşayış şəraiti indiki qədər yaxşı deyildi, üstəlik, elm, təhsil yüksək dərəcədə inkişaf etməmişdi, onda




Kəblə Əzimə haqq qazandırmaq olar. Bəs, görəsən, necə olur ki, bu gün də Kəblə Əzim kimiləri peyda olur?..

Bu gün muxtar respublikamızda əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində bir sıra tədbirlər həyata keçirilir. Yeni-yeni yaşayış binaları inşa olunur, köhnə binalar yenidən təmir edilir. Ötən dövr ərzində Naxçıvan şəhəri də daxil olmaqla, digər rayon mərkəzlərində də yüzlərlə yaşayış binası əsaslı təmir olunub, mənzillərin sahəsi genişləndirilib, binaların əksəriyyətinin təməli möhkəmləndirilərək əlavə mərtəbələr artırılıb, binalar müasir kommunikasiya xətləri ilə təmin edilib.

Ancaq yeni təmir olunan binanın istifadəyə verilməsindən bir ay keçmir ki, divarlarını internet saytlarının adları, lazımsız sözlər “bəzəyir”. Etiraf edək ki, bugünkü uşaqlar Kəblə Əzim babalarından çox-çox qabağa gediblər. Elə ona görədir ki, Kəblə Əzimdən fərqli olaraq bugünkü uşaqlar binaların divarlarına heyvan, yumurta şəkli, onun da yanında nəyəsə oxşayan bir əşya-zad çəkmirlər. İndi internet dövrüdür. Ona görə də divarlarda ən çox internetlə bağlı məlumatlar “gözümüzü oxşayır”.

Naxçıvan Şəhər I saylı Mənzil İstismar İdarəsinin müdiri İsa Məhərrəmovla söhbət zamanı bildirdi ki, rəhbərlik etdiyi idarə 51 çoxmərtəbəli və 11 birmərtəbəli olmaqla, ümumilikdə, 62 yaşayış binasına nəzarət edir. Gündəlik olaraq idarənin işçiləri həmin binaların təmizliyini yoxlayır, kommunal xətlərdə yaranan çətinlikləri tez bir zamanda aradan qaldırmağa çalışırlar. Ancaq son vaxtlarda daha bir məsələ üçün vaxt itirməyə məcbur olurlar. Bəzi insanlar hara gəldi internet resurslarının, saytların adını, müxtəlif mesajlar, reklam xarakterli elanlar yazırlar. Acınacaqlı mənzərə həm də ondan ibarətdir ki, təzəcə təmirdən çıxmış binaların divarlarına da belə bənzər yazılar yazılır. Ancaq bu neqativ hala qarşı bir və ya bir neçə idarə tərəfindən tam nəzarət etmək mümkün deyil. Bu işdə ictimaiyyət nümayəndələri böyük rol oynaya bilərlər.

Bəli, bu gün bu problem var və çox təəssüflər olsun ki, binaların bu şəkildə korlanması halları davam edir. Bununla həm insanların estetik zövqü korlanır, həm də uşaqların tərbiyəsinə xələl gətirən halların yayılmasına şərait yaranır. Bu problemi yaradan şəxslər dərk etməlidirlər ki, yazını yazı taxtasına yazarlar, bina divarına yox.

**✍ Nail ƏSGƏROV**

*İtmişdir*

“Dayaq – T” Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN-0600002201) fəaliyyətini dayandırdığından ləğv olunur.

**ŞƏRQ qapısı**

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Ədəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 563